# ABB Startapları – məhsulun inkişaf mərhələləri



# İnkubasiya öncəsi: İdeyadan - > pretotipə

**İnkubasiya öncəsi**
6 həftə

Başlanğıc

Son

## İdeya:

Proqramın fəaliyyət istiqamətinə uyğun olan və sahibkar ruhlu yenilikçi fikirlər axtarırırq. Bu fikir, inkişaf etdirilə bilir və işlək bir həll halına çevrilə biləcək özünəməxsus bir fikir olmalıdır.

## İnkubasiya öncəsi:

Pretotip, yalnız marağı yoxlamaq üçün istifadə olunan məhsulun ilkin versiyasıdır. Çatdırılma xidməti olan restoranınız üçün, pretotip - səhifənizə nə qədər ziyarətçinin gəldiyini izləyən sadə bir veb sayt nümunə ola bilər ki, bu da insanların sizdən yemək sifariş etməkdə maraqlı olub -olmayacağı barədə fikir verir. Təqdimat günü Pretotipi aydın şəkildə təqdim etmək lazımdır.

# İnkubasiya: Pretotipdən –> prototipə/MVP

İnkubasiya
4 ay

Başlanğıc

Son

**İşlək pretotip:**
İnkubasiyaya yalnız işlək pretotipə (ilkin nümunə) sahib uğurlu startaplar qəbul edilir

**Prototip:**
Prototip də hər hansı bir məhsulun ilkin versiyasıdır - ancaq pretotipdən fərqli olaraq daha çox detalları özündə əks etdirir. İnsanların məhsulunuzla maraqlandığını öyrəndikdən sonra, yaratdığınız məhsulun müştəri gözləntilərinə uyğun olub olmadığını yoxlamaq və sizin kimi bir məhsulun əslində qurula biləcəyini və gözlənildiyi kimi işləyəcəyini öyrənmək üçün mühəndislərlə işləmək üçün bir prototip yaradırsınız. Restorana nümunəsinə qayıtsaq: prototip, əsas veb saytınıza bir menyu əlavə etməyi və insanların daha çox hansı əşyalara baxdığını ölçməyi nəzərdə tutur. Bir neçə resept hazırlamağı və insanlara geri dönüş etmək əvəzinə hazırlanmış yeməyi pulsuz təqdim etməyi də əhatə edə bilər. Təqdimat günü prototipin təqdim olunması mütləqdir.

# Akselerator: MVP-dən real biznəsə doğru

**Akselerator**
5 ay

Başlanğıc

Son

**MVP tələb olunur:**
MVP də eyni zamanda bir məhsulun ilkin nümunəsidir, lakin pretotip və prototipdən daha çox məlumatı özündə birləşdirir, və insanların ödəniş edib məhsulu istifadə etməsi üçün dəyər yaradır. Qeyd etmək lazımdır ki, MVP sizin məhsulunuzun son versiyası deyildir, sadəcə istifadəyə yararlı olmalıdır. Restoranlarda ödənişli müştərilərə yemək çatdırılması MVP -nizə daxil ola bilər. Bununla birlikdə, yemək və çatdırılma vaxtınıza və mənbələrinizə qənaət etmək üçün üçüncü tərəfdən istifadə edə bilərsiniz..

**Yüksələn biznes:**
ABB Akseleratorun əsas hədəfi proqrama qəbul edilən rezidentlərin proqram bitdikdən sonra bəlli müştəri bazasına sahib və gəlir eldə edə bilən bir biznesə çevrilməsidir.

# Məhsul üzrə səyahət

### Fikir



### Pretotip (ilkin nümunə)



### Prototip / MVP

